# Şəhidlərimizin rəşadəti-vətəndaşlıq nümunəsi

Yanvar ayının 18-də ulu öndərin adını daşıyan mərkəzdə 20 Yanvar—Ümumxalq Hüzn Günü ilə əlaqədar anım mərasimi keçirilmişdir.

Mərasimdə rayon icra hakimiyyətinin məsul işçisi Z. Əfəndiyev, şəhər 1, 2, 3, 4, 5 saylı orta məktəblərin və ictimaiyyətin nümayəndələri iştirak etmişlər. Yığıncağın iştirakçıları mərkəzin direktoru X. İsayevanın təklifi ilə azadlıq uğrunda şəhid olmuş insanların xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Sonra X. İsayeva çıxışında 20 Yanvar faciəsinin başvermə səbəbləri, keçmiş sovet ordusunun ölkdə törətdiyi cinayətlər barədə ətraflı məlumat vermiş, imperiya qoşunlarının Bakıya soxularaq dinc əhalini-qocaları, qadınları, uşaqları vəhşicəsinə qətlə yetirməsini qeyd etmişdir.

Yığıncaqda Z. Əfənidiyev öz çıxışında 20 Yanvar hadisələrinə geniş yer verdi. Dedi ki, tarix boyu məmləkətimiz çox sınaqlarla üz-üzə qalıb. Torpaqlarımızın halallığına haram gözlə baxanlar, ölkəmizin yeraltı, yerüstü sərvətlərinə tamah salanlar, dövlətimizin müstəqilliyini gözü götürməyənlər çox olub. Ancaq xalqımızın azadlıq arzularını boğmağa, milli mücadilə yolunu bağlamağa cəhd edənlər son anda yanıldıqlarını anlamaq zorunda qaldılar.

Bu hüznlü günümüzdə ölkəmizin ucalığa çatması üçün ötən əsrin doxsanıncı ilində Vətən, millət naminə, məmləkətin müstəqilliyi, azadlığı naminə imperiya yırtıcılarının üzərinə əliyalın gedərək, sinələrini gülləyə sipər edərək şəhidlik zirvəsinə yüksələn Azərbaycan övladlarının qəhrəmanlığından qürurla söz açıb, xatirələrini ehtiramla yad edirik.



Natiq diqqətə çatdırmışdır ki, Azərbaycan xalqının o ağır günlərində ümummilli lider Heydər Əliyev həyatını təlükə altında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlmiş, faciənin törədilməsinə rəvac verən keçmiş sovet rəhbərliyini ifşa etmişdir. 20 Yanvar faciəsinə ulu öndər Heydər Əliyev Azərbaycanda yenildən hakimiyyətə qayıtdıqdan sonra siyasi qiymət vermişdir.

Zahid Əfəndiyev xalqımızın milli azadlıq mübarizəsinin şanlı səhifəsinə çevrilmiş 20 Yanvar faciəsindən 23 il keçməsinə baxmayaraq faciə qurbanlarının heç vaxt unudulmadığını və Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə şəhid düşmüş Vətən oğullarının rəşadətinin gənc nəsil üçün vətəndaşlıq nümunəsi olduğunu vurğulamışdır. O, sonda Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş Vətən övladlarının adlarının əbədiləşdirilməsi şəhid ailələrinə diqqət və qayğının artırılması ilə bağlı ölkə rəhbəri İlham Əliyevin fəaliyyətinin xaldqımız tərəfindən yüksək qiymətləndirdiyini qeyd etdi.

Mərasimdə çıxış edən rayon təhsil şöbəsinin əməkdaşı T. İsayeva, şəhər 2 saylı tam orta məktəbin müəllimi Gülər Müzəffərova və başqaları belə bir fikri nəzərə çatdırmışlar ki, 20 Yanvar yalnız ümumxalq hüzn günü deyil, eyni zamanda imperiya siyasətinə dözməyən, azadlığa can atan xalqımızın mübarizliyini və məğrurluğunu nümayiş etdirən qəhrəmanlıq salnaməsidir.

Tədbirdə 20 Yanvar hadisələri ilə bağlı şəhər məktəbliləri arasında sorğular keçirildi. Sorğulara daha düzgün cavab verildiyinə görə şəhər 4 saylı tam orta məktəbin şagirdləri qalib hesab edilmiş və Heydər Əliyev mərkəzinin fəxri fərmanı ilə təltif olunmuşlar. Sonda rəsm qalereyasının 20 Yanvar şəhidlərinin xatirəsinə həsr edilmiş foto və rəsm sərgisinə baxış keçirilmişdir.

**Aslan CƏLİLOV.**
**Foto S. Umuyevindir.**

# Bəşər tarixində qara hadisə

20 Yanvar faciəsinin 23-cü ildönümü 10 saylı ərazi vergilər idarəsinin iclas salonunda keçirildi. Toplantını giriş sözü ilə idarənin rəis müavini E. Abdullayev açdı və 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Məruzəçi qeyd etdi ki, Azərbaycan xalqının gürur ünvanına çevrilmiş 20 Yanvar hadisəsinin başvermə səbəbləri ilə bağlı zaman-zaman müxtəlif fikirlərə, rəylərə rast gəlinsə də bütün əks mövqelər bir nöqtədə kəsişir: bu tarixi gündə



E. Abdullayev 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə və sonrakı gərgin günlərdə ölkənin paytaxtı Bakı şəhərində baş vermiş facia və eyni zamanda vətənin azadlığına, suverenliyinə aparan qəhrəmanlıq salnaməsi haqqında geniş məruzə etdi.

Azərbaycan xalqı əsrlər boyu qəlbində yaşatdığı milli azadlıq və istiqlal istəyindən geri çəkilməyəcəyini müqəddəs amal uğrunda, hətta, canından belə keçməyə hazır olduğunu bütün dünyaya nümayiş etdirdi. Əslində bu hadisə xalqımızın milli azadlıq uğrunda mübarizəsinin, habelə qürur və şərəfinin kulminasiya nöqtəsi idi. Lakin süquta uğramaqda olan sovet imperiyası isə iki əsrə qədər itaətdə saxladığı bir xalqın istiqlalına yol vermək istəmirdi. Ona görə də imperiya amansız cinayətlərlə bu hadisənin qarşısını almağa çalışmışdı. Ancaq ulu öndər Heydər Əlyevin təbirincə desək, o zamanlar tarixi hadisələr, proseslər elə sürətlə gedirdi ki, onun qarşısını heç kim ala bilməzdi.

E. Abdullayev məruzəsində 20 Yanvar hadisəsinin baş vermə səbəbləri, həmcinin törədilən qırğın barədə əsaslı faktlar söylədi, yanvarın 21-də ümummilli lider Heydər Əliyevin Moskvada Azərbaycanın daimi nümayəndəliyində bu hadisəyə dair mətbuat konfransındakı qəzəbli və qətiyyətli bəyanatının Azərbaycanda xüsusi əks-səda doğurduğunu, bu bəyanatın müstəqilliyə aparan yola daha parlaq işıq saсdığını nəzər-diqqətə çatdırdı.

Tədbirin sonunda 19—20 yanvarda və sonrakı yaxın günlərdə baş verən hadisələri nümayiş etdirən 25 dəqiqəlik videogörüntülər nümayiş etdirildi.

**Mətn və foto**
**Nadir ATAKİŞİYEVİNDİR.**

# «Xalqımızın qan yaddaşı, dərd ocağımız»

Zarağan kənd 1 saylı tam orta məktəbində «20 Yanvar... Xalqımızın qan yaddaşı, dərd ocağımız» mövzusunda keçirilən tədbirdə bir daha xatırladıldı ki, o gün yaşanmış faciəmiz yaddaşlardan silinməyəcək qədər ağrılı-acılıdır. Hər ilin bu günü yaraların qaysağı qopur, ürəklərin başı sökülür.

Bu faciə təkcə bizdə deyil, hər il bütün təhsil ocaqlarında, ictimai yerlərdə hüznlə anılır. Yenə 2013-cü ildə də bu kədər, bu acı yenidən dindi ürəklərdə. Məktəbimizin direktoru Məlahət Hidayətova, direktor müavini Maqsud Qasımov, uşaq birliyinin sədri Qəsidə Səddinova tədbirin təşkilində böyük əmək sərf etmişlər. Tədbirin bədii yaradıcı heyəti—Rəsmiyyə Rəsulzadə, Aysel Hidayətzadə, Elnarə Əliyevanın da xidmətləri böyükdür. Şagirdlərimiz düşmənə intiqam ruhlu, vətənə məhəbbət pafoslu şeirləri və çıxışları ilə bu faciənin kədərini daha da qabarıq şəkildə canlandırdılar.

Tədbirdə rayon təhsil şöbəsinin nümayəndəsi Tərane Səlimova iştirak edirdi. O öz çıxışında bu faciənin acı kədərindən söz açmaqla yanaşı, tədbirin ümumi hazırlığından, bədii hissənin məzmunundan razı qaldığını bildirdi.

**Səadət MƏMMƏDOVA,**
**məktəbin müəllimi.**